# Qəbələ yeni yüksəliş mərhələsində

## 2017-ci ildə sosial-iqtisadi inkişafın yekunlarına və qarşıda duran vəzifələrə dair Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayevin hesabat məruzəsi

(Əvvəli 5-ci səhifədə).

**Hörmətli yığıncaq iştirakçıları!**

Qəbələ Rayon Mərkəzi Xəstəxanasına hesabat ili ərzində stasionar müraciət edən xəstələrin sayı 2666 nəfər, aparılan cərrahi əməliyyatların sayı 213 olmuşdur.

İl ərzində dərman və sarğı materiallarının alınmasına 461855.00 manat vəsait xərclənmiş, əhaliyə 333609.00 manatlıq pulsuz dərman verilmişdir.

Zərifə Əliyeva adına Respublika Göz Xəstəlikləri İnstitutunun əməkdaşları səyyar briqada şəklində Qəbələyə gəlmiş, 22-dən artıq xəstəni müayinə edərək onların 16 nəfərində cərrahi əməliyyat etmişlər.

Məcburi tibbi müayinəyə cəlb edilməsi nəzərdə tutulan obliqat qruplar qrafik üzrə 6800 nəfər planlaşdırılmış, onlardan 2017-ci il ərzində 4125 nəfər müayinəyə cəlb edilmişdir. 0-18 yaşlı uşaqların icbari dispanserizasiyası il boyu aparılmış və onların sayı 26682 nəfər olmuşdur.

Bu müddət ərzində Qəbələ Müalicə Diaqnostika Mərkəzinin konsultativ poliklinika şöbəsinə xəstə gəlişlərinin sayı 22502, endoskopiya kabinetində müayinələrin sayı 1798, EKQ müayinələrinin sayı 4189, stomatoloji kabinetdə müalicə olunan xəstələrin sayı 582, stasionar şöbəyə daxil olan xəstələrin sayı 1228 nəfər, aparılmış cərrahiyyə əməliyyatlarının sayı 1128 olmuşdur. Hemodializ şöbəsində 60 xəstədə 7318 hemodializ seansı aparılmış, şüa diaqnostika şöbəsində USM müayinələrinin sayı 10506, kompyuter tomoqrafik müayinələrin sayı 1133, rentgen müayinələrin sayı 21988, fizoterapiya və tibbi bərpa şöbəsində prosedurların sayı 10365, kliniki laboratoriyada müayinələrin sayı 424349 olmuşdur.

Ölkə Prezidentinin tapşırığı əsasında respublikada 18 yaşından yuxarı olan əhalinin fevralın 15-dən mayın 15-dək dispanserizasiyası məqsədilə kütləvi tibbi müayinəsi keçirilmişdir.

Rayon mərkəzi xəstəxanasında, müalicə diaqnostika mərkəzində, qəsəbə və kəndlərdə fəaliyyət göstərən həkim briqadaları tərəfindən 18 yaşından yuxarı 67181 nəfər müayinə edilmişdir. Müayinələrin nəticəsinə əsasən 1821 nəfərə ambulator müalicə təyin edilmiş, 388 nəfər stasionar müalicəyə, 235 nəfər Bakı şəhərindəki ixtisaslaşdırılmış klinikalara göndərilmiş, 93 nəfər üzərində cərrahiyyə əməliyyatı aparılmışdır. Rayonun bütün yaşayış məntəqələri üzrə əhali müayinəyə cəlb olunmuş və dispanserizasiya işləri uğurla başa çatmışdır.

Rayon gigiyena və epidemiologiya mərkəzi tərəfindən ilin əvvəlindən yoluxucu xəstəliklərin qarşısının alınması, sanitar-profilaktiki tədbirlərin həyata keçirilməsi məqsədi ilə ayrı-ayrı sahələr və yoluxucu xəstəliklər üzrə kompleks tədbirlər təşkil olunmuşdur.

Aparılmış profilaktik tədbirlərin nəticəsidir ki, son 10 il ərzində rayonda uşaqlar arasında difteriya, göy öskürək, tetanus, qızılça, parotit, məxmərək kimi idarə oluna bilən yoluxucu xəstəliklər qeydə alınmamışdır.

> *Turizm sektorunun inkişafını nəzərə alaraq, bu il Qəbələ şəhərinə dəmir yolunun çəkilişi başlanmalıdır. Çünki Qəbələ Bakıdan sonra ölkəmizin ikinci turizm mərkəzidir və beynəlxalq turizm mərkəzinə çevrilir. Vaxtilə biz Qəbələdə beynəlxalq aeroport inşa etdik. Bu gün bu beynəlxalq aeroport müxtəlif ölkələrə uçuşları təşkil etmək imkanı yaradır. Əgər onu vaxtında tikməsəydik, bəlkə Qəbələyə bu qədər turist gəlməzdi.*
>
> **İlham Əliyev.**



Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin yeni binasının açılışında.




Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinin yeni binası.

Rayon ərazisində yerləşən "Gilan" Qəbələ Konserv Zavodunda, "Gilan" Qəbələ Yeyinti Məhsulları İstehsalı ASC-də, "Aqro-Azərinvest" MMC-nin Şərab Məhsulları Müəssisəsində, "Qəbələ Quşçuluq" ASC-də, "ASPİ AQRO" MMC-nin şərab zavodunda və digər qida sənayesi müəssisələrində istehsal olunan ərzaq məhsulları qeydiyyata alınaraq gigiyenik serifikatlaşmaya cəlb edilmişdir.

**Hörmətli yığıncaq iştirakçıları!**

Rayonun mədəni-maarif müəssisələri tərəfindən 2017-ci il ərzində tarixi hadisələr, yubileylər və əlamətdar günlər qeyd olunmuş, bir cox maraqlı mədəni-kütləvi tədbirlər keçirilmişdir.

"Gülüstan" və "Gülbuta" folklor qrupları, "Zopu-zopu" etnoqrafik folklor rəqs ansamblı Qəbələdə və Bakıda keçirilən bayram tədbirlərində fəal iştirak etmişlər.

Mədəniyyət mərkəzində fəaliyyət göstərən xalq teatrı II Respublika Xalq Teatrları Festivalının final mərhələsinə çıxmış və Azərbaycan Dövlət Akademik Milli Dram Teatrnın səhnəsində İsi Məlikzadənin "Gəl qohum olaq" tamaşasını göstərmişdir.

Keçən il Xaçmaz şəhərində təşkil olunmuş II Beynəlxalq Dolma Festivalında uğurla iştirak edən Qəbələ kulinarları qaliblər sırasına çıxmış, festivalın diplomu və medalları ilə təltif edilmişlər.

Qəbələ Dövlət Rəsm Qalareyasında yay mövsümündə xarici və yerli turistlərə mədəni xidmətlərin göstərilməsi məqsədilə yerli sənətkarların əl işlərindən ibarət sərgi təşkil olunmuşdur.

Azərbaycan Respublikasının Birinci vitse prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü və təşkilatçılığı ilə iyulun 29-dan avqustun 3-dək keçirilən Qəbələ IX Beynəlxalq Musiqi Festivalında dünyanın tanınmış musiqi kollektivləri və musiqiçiləri iştirak etmişlər.

Eləcə də ötən ilin avqustunda Qəbələ Rayon İcra Hakimiyyətinin təşəbbüsü və təşkilatçılığı ilə V Qəbələ Beynəlxalq Mürəbbə Festivalı keçirilmişdir. Festivalda dünyanın 22 ölkəsinin, həmçinin respublikanın 44 şəhər və rayonunun şirniyyatçıları iştirak etmişlər.

(Ardı 7-ci səhifədə).